*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 1, 2026*
*Səh. 170-176*

https://doi.org/10.62837/2026.1.170

**SURA TARİYEL QIZI PƏNAHLI**
**AMEA Nəsimi adına Dilçilik İnstitutunun dissertantı filologiya üzrə fəlsəfə doktoru**

# DİL İŞARƏSİNİN SƏCİYYƏVİ XÜSUSİYYƏTLƏRİ

**Açar sözlər:** *dil və təfəkkürün qarşılıqlı münasibəti problemi, elmi biliklər sahəsi, təfəkkürün dildə ifadə forması, insan şüuru, dil işarələrinin səciyyəvi əlamətləri, dil elementlərinin məna mücərrədliyi, söyləmdə mənaların konkretləşməsi, xüsusi məna elementləri.*

**Ключевые слова:** *проблема взаимоотношения языка и мышления, область научного знания, языковая форма мысли, человеческое сознание, характерные черты языковых знаков, абстрактность значения отдельных языковых элементов, конкретизация значений в высказывании, особые элементы значений.*

**Key words:** *the problem of the interaction of language and thinking, the field of scientific knowledge, the form of expression of thinking in language, human consciousness, characteristic signs of language signs, meaning abstraction of language elements, concretization of meanings in speech, special meaning elements.*

**Giriş.** Dil – ətraf mühitin dərk olunmasını ifadə edən sistemdir. Dil fərqli işarə sistemlərini ifadə edir, ən mücərrəd anlayışlar belə dil vasitəsilə ifadə olunur. Dil işarəsinin mürəkkəbliyi onun fərqli işarə sistemləri arasında olan əlaqələndirici funksiyası ilə izah olunur. Aşağıdakı faktorlar dil işarələrini digər işarə sistemlərindən fərqləndirir:

a) Dil işarələrinin mücərrəd mənalarının söyləmlərdə konkretləşməsi;
b) Zaman, məkan, modallıq, şəxs bildirən anlayışların xüsusi məna elementləri ilə izahı.
c) Hadisə və predmetlərin gələcək və keçmiş vəziyyətləri haqqında diferensial formada mühakimə yürütmək.

Dil işarələrinin maddi baxımdan izahı insanın təfəkkür fəaliyyətini reallaşdıran ifadə vasitələrini səciyyələndirir.

**Əsas hissə.** Dil vahidlərinin maddi baxımdan işarələnməsi onların obyektiv aləmin predmet və hadisələri ilə əlaqələrini şərtləndirir. A.F.Losevin fikrincə, *dil işarələrinin araşdırılması dilçiliyin yalnız müasir deyil, ümumiyyətlə, daimi problemlərindəndir. Dilin və məntiqin araşdırılması problemi o qədər mürəkkəbləşmişdir ki, işarə nəzəriyyəsinin müasir tədqiqi barədə fikir söyləmək son dərəcə çətindir* [1, s. 28-30].

İşarənin mənalandırılması barədə semiotik terminologiyada bir qarışıqlıq hökm sürür. Ümumi fəlsəfi mənada işarə – maddi baxımdan hiss olunan əşya, hadisə və fəaliyyət olub, anlayışda işarə funksiyasına malikdir. İşarə yalnız anlayış obyekti olmayıb, eyni zamanda qnoseoloji problemlərin həllini özündə ehtiva edir. Elm inkişaf etdikcə, daha çox işarəni insanlara təqdim edir.

O.S.Axmanovanın "Linqvistika terminləri lüğətində deyilir: "Dil işarəsi dildə hər hansı mənanın ifadəsidir". Real nitqdə funksionallaşan işarə aktuallaşmış hesab olunur. Aktual işarə nitq elementləri olaraq virtual işarəyə, yəni dil elementinə qarşı qoyulur [2, s. 158-159].

A.A.Leontyevin fikrincə, *virtual işarə nitq fəaliyyətinin məlum xüsusiyyətidir və material obyektə aid olur. Virtual işarə konkret işarəolunma əməliyyatının elementidir* [3, s. 31-34]. İşarə təqdimatının mahiyyətini maddi aləmin ideallaşması kimi başa düşmək lazımdır. Bu problemin əsas səciyyəvi xüsusiyyətləri izah olunarkən aşağıdakı suallar yaranır:

a) Obyektiv aləmdə dil və təfəkkürün qarşılıqlı münasibəti məsələsi necə həll olunur?

b) Dil işarəsinin müəyyənləşməsi zamanı dilin dörd funksiyasından (mənalandırma, qnoseoloji, kommunikativ, praqmatik) hansı əsas götürülür?

c) Dil işarəsi semiotik sistemlərin əsas işarələri ilə eyniləşdirilirmi?

A.A.Ufimsevanın fikrincə, *dil işarəsi digər semiotik sistemlərin vahidlərindən öz mürəkkəbliyi ilə seçilir.* Dil işarəsi danışanın mental və emosional vəziyyətinin ifadəsi kimi qəbul edilə bilər. Səs birləşmələrində təqdim olunan şüurda mövcud olanın işarəsidir, yazıda isə bu səs işarələri təqdim olunur. İşarə anlayışı yunan dilində "semion" adlanırdı və antik dövrdə "şəhadət", "sübut", "əlamət" mənalarında işlənirdi [4, s. 106-107]. V.Humboldt qeyd edirdi ki, *söz – anlayışın işarəsidir. Söz – hissiyyat vasitəsilə dərk edilən əşyanın ekvivalenti deyildir. Söz-səs və anlayışın vəhdətini özündə ehtiva edir. Sözlə ifadə olunmuş anlayış onun mənasını motivə edir. Səs forması isə ixtiyarı olub, təcrübə nəticəsində dildə mövcud olur. Dil – həm əks edən, həm də işarədir* [5, s. 348-349].

İ.A.Boduen de Kurtene qeyd edirdi: *"Dil – çoxsaylı təsadüfi simvollardan ibarət olan bir-biri ilə ən müxtəlif şəkildə əlaqələnən işarələr sistemidir. Dil işarələri ixtiyaridir və bu işarələr heyvanların dilindən fərqlənir. Heyvanların dili hissiyyata əsaslanır, insan dilindəki söz işarələri isə öz semantik təkamülü əsasında yeni mənalar yarada bilir"* [6, s. 21-24].

Dil işarələri konvensional xüsusiyyətə malikdir. Dil işarəsi ifadə etdiyi əşya və hadisələrin izahında xüsusi əhəmiyyət kəsb edir, işarə ilə ifadə olunan obyekt arasında xüsusi əlaqə mövcud olur. Söz adlandırdığı əşya və hadisələrin hər hansı bir əlamətini ifadə edir. Lakin zaman keçdikcə, əşya və hadisələrin tam ifadəsinə çevrilir.

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 1, 2026*
*Səh. 170-176*

Rus alimi N.V.Kruşevski dil işarəsi barədə fikirlərini bu tezislərlə ifadə edir: *"Dil öz elementlərinin: səslərin, morfoloji hissələrin, sözlərin mürəkkəbliyinə və qeyri-müəyyənliyinə əsaslanaraq dəyişir. Bu dəyişmələrin sonsuzluğu sözün simvolik səciyyəsi ilə izah olunur. Dil elementləri: morfoloji hissələr və sözlər yalnız dəyişmir, həm də yox olur və yeni dil vahidləri yaranır. Assosiativ qanunauyğunluqlar dil sistemində mövcud olan psixi və linqvistik hadisələri izah edir. Bu qanunlar çoxsaylı söz kütləsini bir dəqiq sıraya düzür. Assosiativ qanunlar sayəsində oxşar sözlərin çoxsaylı koordinasiya sistemləri və öz köksöz yuvaları yaranır. Assosiativ qanunlar nəticəsində söz dil vahidi kimi mövcud olur"* [7, s. 40-42].

Görkəmli rus alimi A.A.Potebnya dil və təfəkkür problemlərinə xüsusi önəm vermişdir. Alimin fikrincə, *dil – təfəkkür mexanizmi kimi sözyaradıcı funksiyaya malikdir. Dilin təkamülü bilavasitə şüurun inkişafı ilə bağlıdır. Anlayış söz vasitəsilə yaranır, anlayışsız təfəkkür mövcud deyildir. Söz yalnız fərdi şüurun məhsulu olmayıb, eyni zamanda cəmiyyətdə inkişaf edir. İnsan bəşər cəmiyyətinin bir hissəsi olduğu üçün dil ikitərəfli əlaqəyə bağlıdır. Nitq və anlaşmanın qarşılıqlı əlaqəsi obyektivlik və subyektivlik münasibətlərini yaradır. Hissiyyat obrazı mühakiməni doğurur, bu isə obrazın analitik dərk olunmasıdır. Bütün bunlar anlayışın əsasını təşkil edir* [8, s. 201-205].

Dil sistem kimi ümumi səciyyəli xassələrin məcmusudur və bu ümumilik yalnız xüsusi əlamətlər vasitəsilə ifadə olunur. Burada ümumiləşdirmə dil vahidləri səviyyəsinin əsas xüsusiyyətlərindən biri kimi səciyyələnir. Dil işarəsinin mühüm kateqorial xüsusiyyətlərini araşdırarkən ilk növbədə qeyd etmək lazımdır ki, sözün səs formasının məna və dil vahidinin əşyəvi məzmunu ilə heç bir əlaqəsi yoxdur.

Dil işarəsinin ikinci mühüm kateqorial xüsusiyyəti onun ixtiyariliyi və sərbəstliyidir. Səslənən formanın isə məna ilə heç bir məntiqi əlaqəsi mövcud deyildir. Eyni bir obyektin və onu ifadə edən anlayışın işarə seçiminin təqdimatı müxtəlif dillərdə fərqlidir. Dil işarəsi informasiya ötürülməsinin konvensional vasitəsidir və bu baxımdan mənalandırdığı əşya və hadisə ilə heç bir əlaqəsi yoxdur. Dil işarəsi nitq funkosionallaşmasının konkret şəraitindəki aktuallaşma prosesində və özəl linqvomədəni sosiumda bir sıra xüsusiyyətlərə malik olur. Əlbəttə burada funksionallaşan hər bir dil işarəsinin ixtiyariliyini şərtləndirən ənənəvi və struktur sistem xüsusiyyətlərinin mühüm rolunu qeyd etmək vacibdir. Məhz bu fakt dil normalarının yaranmasına, dil kollektivi üzvlərinin işarənin reallaşmasına şüurlu təsirinə, işarənin funksionallaşma səviyyəsinin müəyyənləşməsinə şərait yaradır.

Dil işarəsinin daha bir kateqorial xüsusiyyəti onun vahidliyindədir. Dilin linqvosemiotik sistem kimi araşdırılmasında onun bütün funksiyaları, daxili və xarici əlaqələri nəzərə alınır.

Q.P.Şedrovitski yazır: *"İşarə sistemini müəyyənləşdirmək insanın ictimai fəaliyyətindəki bütün münasibətləri və əlaqələri səciyyələndirmək deməkdir. Bu münasibət və əlaqələr insanın sosial fəaliyyətini xüsusi təşkil olunmuş bir orqanik*

*bütövə çevirir".* E.S.Kubryakova yazır: *"Müasir dövrdə koqnitivlik nöqteyi-nəzərindən linqvistikanın qarşısında üç problem durur: dil işarəsinin xüsusiyyətləri, onun dər olunması və tətbiqi"* [9, s. 87-88].

Fikrimizcə, artıq semiotika insan fəaliyyətinin bütün sahələrinə: informasiya aləminə, etikaya, konseptologiyaya daxil olur. Dilçilikdə strukturalizm və poststrukturalizm dövründə qəbul edilmiş qanunlar dəyişir, bəzi elm sahələrini bir-birindən ayıran sərhədlər pozulur. Koqnitiv dilçiliyin təkamülünün ilk dövrlərində mentallıq anlayışı işarə kimi qəbul olunurdu. Mentallıq ətraf aləmin insan təfəkküründəki əksidir və şüurda yaddaşla əlaqələnir.

G.U.Morrisin fikrincə, *"semiotikanın digər elmlərlə münasibəti ikili səciyyə daşıyır. Bir tərəfdən semiotika digər elmlər kimi elmdir, digər tərəfdən isə o elmlərin izahetmə alətidir"* [11, s. 129-133]. Semasiologiya müxtəlif mənaları ifadə edən semioloji sistemlərin vahidlərinə əsaslanır. Məna real aləmin şüurda əks olunan hadisə, əşya və münasibətləri özündə ehtiva edən dil faktına çevrilir. Bu zaman şüurda əks olunmuş obraz və fonetik-orfoqrafik kompleks arasında sıx əlaqə yaranır. Heç bir məna material və real səslənmə və onun yazıda ifadə olunan əksi olmadan mövcud deyildir.

Dil-ünsiyyət sistemlərinin ən tamı və mükəmməlidir. Semiotikanın obyektini ünsiyyət işarələri təşkil edir. Semiologiya işarələr sistemini öyrənən ümumi elmdir. Avropa, Amerika və rus alimləri Ferdinand de Sössürü işarə nəzəriyyəsini tədqiq edən ilk alim kimi, təqdim edirlər. Lakin Ferdinand de Sössürün yaşayıb-yaratdığı XIX əsrdən çox-çox yüzilliklər öncə şərq alimləri işarə nəzəriyyəsinə cild-cild kitablar həsr etmişlər.

Bu alimlər arasında ərəb dilində yazıb-yaradan türkəsilli alimlərin: Xətib Təbrizinin, Əbu Nəsr Fərabinin, İbn Əli İbn Sinanın, Nəsirəddin Tusinin, Şührəvərdinin, Hüsaməddin Xoyinin və başqalarının adlarını xüsusilə qeyd etmək lazımdır.

İsveçrə alimi Ferdinand de Sössür dilin işarə təqdimatının mahiyyətini araşdırmış, işarə sistemləri nəzəriyyəsinə əlavələr etmişdir. O, işarənin ikitərəfli mahiyyətini açıb göstərmiş və qeyd etmişdir ki, bu tərəflər psixi hadisələr və insan şüurundakı assosiativ əlaqə ilə bağlıdırlar [12, s. 54-56].

Dil işarəsinin ikonik və indeksal hissələri çox zaman diqqətdən kənarda qalır. Dilin simvolik xarakteri onu digər indeksal və işarə sistemlərindən fərqləndirir. İkonik işarələrin iki növü: obrazlar və diaqramlar Ç.Pirs tərəfindən dilçiliyə gətirilmişdir. Obrazlarda mənalandırılanın əsas əlamətləri ifadə olunur, diaqramlar isə obrazların müəyyən hissələrini özündə ehtiva edir. Ç.Pirs üç əsas işarə növünü ayırırdı: simvol, ikonik işarə, indeks [15, s. 165-226].

**Nəticə.** Dil – işarələr sistemi olub, məna və akustik obrazın vəhdətindən ibarətdir və bu iki komponent psixi xüsusiyyətə malikdir. Dil də nitq kimi konkretdir

və bu baxımdan tədqiqata cəlb oluna bilər. Dil işarələri kollektiv razılaşma əsasında yaranır və beyində lokallaşan real anlayışları ifadə edir.

E.Benvenist yazır: "Söhbət yalnız bir işarədən deyil, ümumiyyətlə, işarələr sistemindən və onların bir-birinə münasibətlərinin müəyyənləşdirilməsindən gedir. Dil sisteminin sinxron vəziyyətində mənaların nisbəti, onların qarşılıqlı asılılığı aydın nəzərə çarpır. Burada xarici forma şərti hesab olunur [16, s. 93-94].

Ş.Ballinin fikrincə, *şərti işarənin mahiyyəti müəyyən assosiasiya ilə əlaqədardır. Lakin tam ixtiyari işarənin mahiyyəti onun digər işarələr ilə əlaqəsindən assosiasiyalardan ibarətdir* [17, s. 75-78].

İşarə yalnız mənalandırılanı ilə deyil, mənalandıranı ilə də motivasiya oluna bilər. İşarə akustik assosiasiyalarla, vurğunun yerdəyişməsi ilə,intonasiya ilə də motivasiya oluna bilər.

**İstifadə olunmuş ədəbiyyat**


1. Лосев А.Ф. Знак, символ, миф. – Москва: Издательство Московского Университета. – 2002. – с. 28-30.
2. Ахманова О.С. Словарь лингвистических терминов. – Москва: Советская энциклопедия. – 1966. – с. 158-159.
3. Леонтьев А.А. Психология общения. – Москва: Смысл. – 1997. – стр. 31-34.
4. Уфимцева А.А. Знаковая природа языка. Общее языкознание: формы существования, функции, история языка. – Москва: Изд. Наука. – 1970. – с. 106-107.
5. Гумбольдт В. Язык и философия культуры. – Москва: Прогресс. – 2005. – с. 348-349.
6. Бодуен де Куртене И.А. Избранные труды по общему языкознанию. – Москва: Наука. – 2003. – с. 21-24.
7. Крущевский Н.В. Очерк науки о языке. – Казань: Типография. Казанского Университета. – 2009. – с. 40-42.
8. Потнбня А.А. Психология поэтического и прозаического мышления. / Потебня А.А. Слово и миф. – Москва: Правда – 1989. – с. 201-205.
9. Щедровицкий Г.П. Что значит рассматривать язык как знаковую систему? Материалы к конференции «Язык как знаковая система особого рода». – Москва: Наука, – 2017. – с. 87-88.
10. Кубрякова Е.С. Части речи с когнитивной точки зрения. – Москва: Наука. – 1997. – с. 150-151.
11. Моррис Ч.У. Основания теории знаков. Семиотика. Антология. – Москва: Деловая книга. – 2001. – с. 129-133.
12. Соссюр Ф. Труды по языкознанию. – Москва: Прогресс. – 2007. – с. 54-56.

13. Мейе А. Сравнительный метод в историческом языкознании. – Москва: ИЛ. – 2004. – с. 11-12.
14. Дорошевский В. Элементы лексикологии и семиотики. – Москва: Прогресс. – 2003. – с. 102-103.
15. Пирс, Ч. Из работы «Элементы логики». – Москва: Деловая книга, – 2002. – с. 165-226.
16. Бенвенист Э. Общая лингвистика. – Москва: Прогресс. – 2004. – с. 93-94.
17. Балли Ш. Общая лингвистика и вопросы французского языка. – Москва: Издательство иностранного литературы. – 2015. – с. 75-78.

**Sura Tariyel qızı Pənahlı**

**Dil işarəsini səciyyəvi xüsusiyyətləri**

**Xülasə**

Dil və təfəkkür münasibətlərinin tədqiqi elmin əsas problemlərindən biridir. Dil fərqli işarə sistemlərini ifadə edir, ən mücərrəd anlayışlar dil vasitəsilə ifadə olunur. Dil işarəsinin mürəkkəbliyi onun fərqli işarə sistemləri arasında olan əlaqələndirici funksiyası ilə izah olunur. Dil işarələri digər işarə sistemlərindən aşağıdakı xüsusiyyətləri ilə fərqlənir: dil işarələrinin mücərrəd mənaları söyləmlərdə konkretləşir, zaman, məkan, modallıq, şəxs bildirən anlayışlar xüsusi məna elementləri ilə izah olunur, hadisə və predmetlərin, gələcək və keçmiş vəziyyətləri haqqında diferensial formada mühakimə yürüdülür. Dil işarələrinin maddi baxımdan izahı insanın təfəkkür fəaliyyətini reallaşdıran ifadə vasitələrini səciyyələndirir.

**Сура Тариел кызы Панахлы**

**Характерные особенности языкового знака**

**Резюме**

Проблема взаимоотношения языка и мышления является одной из наиболее важных проблем в области научного знания. Начиная с античной философии, вопросы, связанные с данной проблематикой, вызывают огромный интерес исследователей. Рассматривая проблему взаимоотношения языка и мышления, вместе с тем, не следует забывать о том, что языковая форма мысли является единственной, присущей человеческому сознанию. Характерными чертами языковых знаков являются следующие: абстрактность значения отдельных языковых элементов конкретизация их значений в высказывании, специальная выраженность особыми элементами значений; времени, места, модальности, лица. Возможность благодаря этому дифференцированно высказывать суждения и прошлом и будущем в отзыве от прямых событий и ситуаций и от знаковых явлений.

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 1, 2026*
*Səh. 170-176*

**Sura Tariyel gizi Panahli**

**Characteristic features of language sign**

**Summary**

The study of the relationship between language and thinking is one of the main problems of science. Language expresses different sign systems, the most abstract concepts are expressed through language. The complexity of the language sign is explained by its connecting function between different sign systems. Linguistic signs differ from other sign systems by the following features: the abstract meanings of language signs become concrete in utterances, the concepts denoting time, space, modality, and person are explained by special meaning elements, judgments are made about events and objects, future and past situations in a differential form. The explanation of language signs from a material point of view characterizes the means of expression that realize the thinking activity of a person.

**Rəyçi: f.e.d. Əliyeva Z.M**